DÜNYA XƏBƏRLƏRİ

# Moskvada politoloq narkotik ittihamı ilə həbs edilib

Sentyabr 25, 2026




Aleksandr Kınev

Rusiyada politoloq **Aleksandr Kınev** cinayət işi çərçivəsində həbs edilib və Moskvanın Perovo rayon Məhkəməsinin qərarı ilə sentyabrın 25-də istintaq təcridxanasına göndərilib.

"Mediazona"nın məhkəmə sənədlərinə istinadən yaydığı məlumata görə, Kınev narkotik vasitələrin qanunsuz dövriyyəsində ittiham olunur və bu maddə üzrə onu 10 ildən 20 ilədək həbs cəzası gözləyir.

Politoloqun saxlanılması faktını vəkil **Mixail Biryukov** da "Mediazona"ya təsdiqləsə də, onun məhz nə vaxt saxlanıldığı hələlik məlum deyil. İki gün əvvəl Kınev Dövlət Dumasına keçirilən seçkiləri "Facebook" hesabında şərh edib, həmçinin yaxın vaxtlara qədər onun Telegram-kanalında da seçki nəticələri ilə bağlı paylaşımlar dərc olunub.

Jurnalist Aleksey Venediktovun yazdığına görə, Kınev özünü təqsirli bilmir.

Kınev Rusiyanın regionlarında hakimiyyət strukturunu təhlil edir, seçkilərlə bağlı araşdırmalar aparır. Onun 2025-ci ildə işıq üzü görən "Rusiya regionlarını kim və necə idarə edir" kitabında SSRİ-nin dağılmasından sonra regional administrasiyaların formalaşması mərhələləri tədqiq olunur.

Politoloq Ukraynadakı müharibəyə qarşı çıxıb. Rusiya hakimiyyəti bu ilin fevralında onu "xarici agent" elan edib.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur